## ƏHƏMIYYƏTLI UÇOT SIYASƏTI VƏ IZAHLI QEYDLƏR

Yeni Azərbaycan Partiyası (bundan sonra mətndə "Partiya" adlandırılacaq, qısa şəkildə "YAP") Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün nizamnaməsi və proqramı əsasında – Azərbaycanda hüquqi dövlət, sivil vətəndaş cəmiyyəti, sabit və sosial yönümlü iqtisadiyyat, azərbaycançılığı ehtiva edən milli birlik yaratmaq məqsədilə birgə fəaliyyət göstərən vətəndaşların birləşdiyi parlament tipli siyasi partiyadır.

Yeni Azərbaycan Partiyasının ali məqsədi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi və müasir beynəlxalq münasibətlər sistemində layiqli yer tutması, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, sabit və sosial iqtisadiyyatın qurulması, irqindən, milliyyətindən, sosial mənşəyindən, dilindən və dinindən asılı olmayaraq şəxsiyyətin hüquq və azadlıqlarının hərtərəfli və etibarlı müdafiəsinin təmin edilməsi, qanunçuluq, möhkəm əmin-amanlıq, ictimai həmrəylik və firavan həyat üzərində qurulmuş vətəndaş cəmiyyətinin formalaşması və insanların müstəqil dövlətçilik altında birləşdirilməsindən ibarətdir.

Partiyaya üzvlük fərdidir.

Partiya Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeyri-kommersiya təşkilatı kimi dövlət qeydiyyatından keçmişdir.

Partiya Azərbaycan Respublikası Vergilər Nazirliyinin müvafiq idarələrində vergi ödəyicisi kimi qeydiyyata alınmışdır (VÖEN 1500150281).

2015-ci il sonuna Partiya üzvlərinin sayı 667,000 (2014-cü il: 650,256) nəfər olmuşdur.

Partiyanın hüquqi ünvanı – AZ1000, Bakı şəhəri, Bül-Bül prospekti, 13.

Partiyanın faktiki ofisinin ünvanı – AZ1000, Bakı şəhəri, Bül-Bül prospekti, 13.

## 1. UÇOT SIYASƏTININ TƏQDIMATI

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

### 1.1 Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

Yeni Azərbaycan Partiyasının maliyyə hesabatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 noyabr 2012-ci il tarixli 263 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"na (SPMHTEQ) uyğun tərtib edilmişdir. Bu maliyyə hesabatlarında, aktivlər və öhdəliklər ilkin dəyəri ilə qiymətləndirilmişdir. Aktivlərin qiymətləndirilməsi zamanı bu aktivlərin alınması üçün çəkilmiş məsrəflərdən deyil, ohların ehtimal olunan satış dəyərindən istifadə olunur.

Maliyyə hesabatlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 noyabr 2012-ci il tarixli 263 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"na (SPMHTEQ) uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki,

Partiyanın uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

## 1.2 Valyutaların yenidən hesablanması

*(a) Funksional valyuta və hesabat valyutası*

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu yerli valyuta olan Azərbaycan Respublikası manatıdır (manat və ya AZN).

*(b) Əməliyyatlar və qalıqlar*

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələr səhmləri, ehtiyatları, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivləri daxil edir.

## 1.3 Torpaq, tikili və avadanlıqlar

Torpaq, tikili və avadanlıqlar elə maddi aktivlərdir ki:
(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Partiyanın balansında ayrıca torpaq yoxdur.

Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir. İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Partiyaya keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xəcləri o dövrün mənfəət və zərərlər

haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Digər əsas vəsaitlər üzrə amortizasiya ayırmaları, bu aktivlərin faydalı istismar müddətindən asılı olaraq, onların ilkin və ya yenidənqiymətləndirilmiş dəyərinin ləğvetmə dəyərinə qədər azalan illik qalıq dəyəri metodu üzrə həyata keçirilir. Faydalı istismar müddəti aşağıdakı qaydada müəyyən edilir:

- Binalar, qurğular – 50 il və ya illik 2%
- Maşın avadanlıq – 10 il və illik 10%
- İT avadanlıqları – 10 il və va illik 10%
- Nəqliyyat vasitələri – 10 il və ya illik 10%
- Mebel və təsərrüfat inventarları – 5 il və ya illik 20%
- Proqram təminatı – 4 il və ya illik 25%
- Sair əsas vəsaitlər – müddətsiz və ya illik 0%

Aktivlərin ləğv edilmə dəyəri və onların faydalı istismar müddəti vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Yenidənqiymətləndirilmiş aktivlər satıldıqda, sair ehtiyatlar (rezervlər) hesabına aid edilmiş məbləğlər "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

## 1.4 Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;

(b) Istifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

## 1.5 İnvestisiyalar

Hesabat dövründə Partiyanın bu kateqoriya üzrə heç bir investisiyası olmamışdır.

## 1.6 Ehtiyatlar

Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:

(a) Maya dəyəri

(b) Xalis satış dəyəri

Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun və bitməmiş istehsalın maya dəyərinə xammal və material xərcləri, istehsal işçilərinin

əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Xalis satış dəyəri – adi təsərrüfat fəaliyyəti zamanı qiymətləndirilmiş mümkün satış qiyməti ilə satış üzrə xərclər arasındakı fərq məbləğidir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

## 1.7 Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank hesabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

## 1.8 Gəlirlər

Gəlirlər təsərrüfat əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı vəsaitlərin və onların ekvivalentlərinin daxil olması zamanı deyil, bu əməliyyatların baş verdiyi anda müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatlarında əks etdirilir.

"Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"da gəlirlər aşağıdakı maddələr üzrə ümumiləşdirilir:

- Üzvlük haqqları
- Əmlakdan götürülən gəlir
- Tədbirlərdən, mətbu nəşrlərdən və məqalələrin yayılmasından, gəlirlə bağlı olan buna bənzər başqa fəaliyyətdən gəlir
- İanələr şəklində götürülən gəlir
- Seçki kompaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait
- Aşağı təşkilatların ödənişləri
- Dövlət büdcəsindən ayrılan vəsait
- Hüquq varisliyi və ya vərəsəlik yolu ilə əldə edilmiş əmlak
- Digər gəlirlər (o cümlədən borcun və ya kreditin alınmasından əldə edilmiş məbləğ)

Partiya üzvlərinin üzvlük haqqı məbləğini Yeni Azərbaycan Partiyasının Siyasi Şurası müəyyən edir.

## 1.9 Xərclər

Xərclər təsərrüfat əməliyyatlarının yerinə yetirilməsi ilə bağlı vəsaitlərin və onların ekvivalentlərinin xaric olması zamanı deyil, bu əməliyyatların baş verdiyi anda müvafiq hesabat dövründə tanınaraq, maliyyə hesabatlarında əks etdirilir.

"Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat"da xərclər aşağıdakı maddələr üzrə ümumiləşdirilir:

- Cari işlərə sərf olunan vəsait
- Siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər
- İctimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər
- Aşağı təşkilatlara ödənclər
- Kreditlər üzrə faizlər
- Fərdi xərclər
- Sair xərclər

## 1.10 Hesablaşmalar və öhdəliklər

Hesablaşmalar və öhdəliklər maliyyə hesabatlarında ədalətli dəyərlə əks etdirilir.

## 1.11 Vergi

Azərbaycan Respublikası Vergi Qanunvericiliyinə müvafiq olaraq, Partiya qeyri-kommersiya təşkilatıdır, mənfəət vergisi, əmlak vergisi və əlavə dəyər vergisi ödəyicisi deyildir.

Partiya muzdlu və muzdlu olmayan gəlirlərdən gəlir vergisi, yol vergisi, bu gəlirlərlə əlaqədar sosial sığorta ayırmaları, ödəmə mənbəyindən tutulan vergilərin, gömrük qanunvericiliyinin tələblərinə müvafiq olaraq gömrük rüsumlarının ödəyicisidir.

# 2. MALIYYƏ RISKLƏRININ IDARƏ EDILMƏSI

## 2.1 Maliyyə riskərinin faktorları

Partiyanın fəaliyyəti bir sıra maliyyə risklərinə meyilli deyildir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski; və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Partiyanın risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Partiyanın fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Partiya müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

***Bazar riski***

- Valyuta riski

Partiya beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də, xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, Avro) dəyişməsindən valyuta risklərinə meyillidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

Valyuta riski o zaman meydana çıxır ki, gələcək kommersiya sövdələşmələri, aktivlər və öhdəliklərin tanınması subyektin funksional valyutası olmayan digər valyutada ifadə edilmişdir. Partiyanın Maliyyə Menecmenti xarici forvard müqavilələri (kontraktları) vasitəsilə hər bir xarici valyutanın xalis mövqeyinin idarə edilməsinə məsuliyyət daşıyır.

- Qiymət riski

Partiya mallar satışı və xidmətlər göstərilməsi üzrə qiymət riskinə mübtəla deyildir.

***Kredit riski***

Partiya əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Partiyada etibarlı kredit tarixinə məxsus olan alıcıların ödəmə qabiliyyətli olmasına inamı təmin edən prosedurlar işlənmişdir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Partiya tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

***Likvidlik riski***

Likvidlik riskinin ehtiyatkarlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət həcminin saxlanmasını, açılmış kredit xəttləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarəetmə

imkanlarını nəzərdə tutur.

***Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski***
Partiya faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olmadığından, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılı deyildir.

## 2.2 Ədalətli dəyərin qiymətləndirilməsi

Aktiv bazarda dövriyyədə olmayan maliyyə alətlərinin (birjadan kənar maliyyə alətləri) ədalətli dəyəri müxtəlif qiymətləndirmə metodları vasitəsilə müəyyən edilir. Partiya hesabat tarixinə bazar şəraitindən asılı olaraq mövcud olan bir neçə qiymətləndirmə metodundan istifadə edir. Uzunmüddətli borcların ədalətli dəyərinin müəyyən edilməsi üçün analoji alətlər üçün birja qiymətləri və ya dilerlərin kotirovkaları tətbiq edilir. Qalan maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün hesablama pul vəsaitləri axınının diskontlaşdırılması metodu istifadə edilir. Faiz svoplarının ədalətli dəyəri pul vəsaitlərinin gələcək axınının törəmə dəyəri kimi hesablanır. Forvard valyuta sövdələşmələrinin (kontraktlarının) ədalətli dəyəri bazarda təkamül tapmış forvard valyuta kurslarından istifadə edilməklə hesablanır.

## 3. TORPAQ, TIKILI VƏ AVADANLIQLAR

| | Binalar | İT və ofis avadanlığı | Nəqliyyat vasitələri | Mebel və ləvazimat | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Əsas vəsaitlərin ilkin və ya qiymətləndirilmiş dəyəri** | | | | | | |
| **31 dekabr 2014-cü il** | **7,404,730** | **279,902** | **1,415,418** | **1,439,782** | **136,967** | **10,676,799** |
| ✓ Daxilolmalar | | 37,235 | 60,529 | 155,264 | 360 | 253,388 |
| ✓ Xaric olmalar | | | | (1,020) | | (1,020) |
| ✓ Yerdəyişmələr | | | | | | - |
| **31 dekabr 2015-ci il** | **7,404,730** | **317,137** | **1,475,947** | **1,594,026** | **137,327** | **10,929,167** |
| **Əsas vəsaitlərin yığılmış amortizasiya məbləği** | | | | | | |
| **31 dekabr 2014-cü il** | **(267,804)** | **(49,529)** | **(492,836)** | **(645,187)** | **(-)** | **(1,455,356)** |
| ✓ Amortizasiya ayırmaları | (148,095) | (31,180) | (138,916) | (306,181) | (-) | (624,372) |
| ✓ Xaricolmalar | | | | 966 | | 966 |
| ✓ Yerdəyişmələr | | | | | | |
| **31 dekabr 2015-ci il** | **(415,899)** | **(80,709)** | **(631,752)** | **(950,402)** | **(-)** | **(2,078,762)** |
| **Xalis balans qalıq dəyəri** | | | | | | |
| - **31 dekabr 2014-cü il** | **7,136,926** | **230,373** | **922,582** | **794,595** | **136,967** | **9,221,443** |
| - **31 dekabr 2015-ci il** | **6,988,831** | **236,428** | **844,195** | **643,624** | **137,327** | **8,850,405** |

## 4. QISAMÜDDƏTLI DEBITOR BORCLARI

| | 2015 | 2014 |
|---|---|---|
| Partiya üzvlərinin üzvlük haqqları | 20,498 | 4,541 |
| **Cəmi qısamüddətli debitor borcları** | **20,498** | **4,541** |

Qısamüddətli debitor borclarının ədalətli dəyəri

| | 2015 | 2014 |
|---|---|---|
| Partiya üzvlərinin üzvlük haqqları | 20,498 | 4,541 |
| **Cəmi qısamüddətli debitor borcları** | **20,498** | **4,541** |

## 5. PUL VƏSAITLƏRI VƏ ONLARIN EKVIVALENTLƏRI

| | **2015** | **2014** |
|---|---|---|
| Kassada olan nəğd pul vəsaitləri | 301 | 1 |
| Bank hesablarında milli valyuta ilə pul vəsaitləri | 1,382,058 | 3,159,640 |
| Bank hesablarında xarici valyuta ilə pul vəsaitləri | - | - |
| Banklarda yerləşdirilmiş depozitlər | 6,000,000 | - |
| **Cəmi pul vəsaitləri** | **7,382,359** | **3,159,641** |

## 6. QISAMÜDDƏTLI KREDITOR BORCLARI

| | **2015** | **2014** |
|---|---|---|
| Malsatan və podratçılara qısamüddətli kreditor borcları | 38,024 | 101,600 |
| İşçi heyətinə qısamüddətli kreditor borcları | 9,40 | 6,976 |
| İcarə üzrə qısamüddətli kreditor borcları | 42,014 | 3,711 |
| **Cəmi qısamüddətli kreditor borcları** | **89,528** | **112,287** |

## 7. VERGİ VƏ SAİR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

| | **2015** | **2014** |
|---|---|---|
| Vergi öhdəlikləri | 3,030 | 5,483 |
| Sosial sığorta üzrə öhdəliklər | 56,091 | 71,022 |
| **Cəmi vergi və məcburi ödəniçlər üzrə öhdəliklər** | **59,931** | **76,505** |

## 8. DİGƏR GƏLİRLƏR

| **Gəlir maddələri** | **2015** | **2014** |
|---|---|---|
| Üzvlük vəsiqəsinin dəyərinin ödənilməsi | - | - |
| Depozit faizindən gəlir | - | 100,000 |
| **Cəmi** | **-** | **100,000** |

## 9. CARİ İŞLƏRƏ SƏRF OLUNAN VƏSAİT

| **Xərc maddələri** | **2015** | **2014** |
|---|---|---|
| Təsərrüfat inventarının alınması | 259,126 | 317,786 |
| Avtonəqliyyat xərclərinə (yanacaq, ehtiyat hissələri) | 182,737 | 173,327 |
| Təmir işlərinə | 319,902 | 91,908 |
| Kommunal və təsərrüfat xərclərinə | 393,770 | 368,600 |
| Özəlləşdirmə və icarə xərclərinə | 235,343 | |
| **Cəmi** | **1,390,878** | **951,621** |

## 10. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRƏ VƏ SEÇKİNİN KEÇİRİLMƏSİNƏ ÇƏKİLƏN XƏRCLƏR

| Xərc maddələri | 2015 | 2014 |
|---|---|---|
| Tədbirlərin və seçkilərin keçirilməsi xərcləri | 760,957 | 656,470 |
| **Cəmi** | **760,957** | **656,470** |

## 11. SİYASİ PARİYANIN SAXLANMASINA VƏ İNFORMASİYA TƏMİNATINA ÇƏKİLƏN XƏRCLƏR

| Xərc maddələri | 2015 | 2014 |
|---|---|---|
| Əmək haqqı | 3,088,210 | 2,848,312 |
| Sosial sığorta ayırmaları | 679,406 | 626,628 |
| Ezamiyyə xərcləri | 161,264 | 130,043 |
| Çap işlərinə | 49,350 | 47,797 |
| Dəftərxana xərcləri | 61,246 | 43,322 |
| Bank xidmət haqqları | 62,778 | 41,801 |
| Yerli təşkilatlara, audit xidmətinə, kompüterlərə texniki xidmətə, abunə haqqlarına və s. | 131,847 | - |
| **Cəmi** | **4,234,101** | **3,737,903** |

## 12. SAİR XƏRCLƏR

| Xərc maddələri | 2015 | 2014 |
|---|---|---|
| Əsas vəsaitlərin amortizasiyası | 624,371 | 543,101 |
| Depozit faizindən mənbədən ödənilən vergi | - | 10,000 |
| Sair xərclər | - | 122,774 |
| **Cəmi** | **624,371** | **675,875** |

## 13. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Hazırkı maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərəflərdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin. Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 14. RISKLƏRIN IDARƏ EDILMƏSI

Partiya daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### 14.1 Kredit riski

Partiyanın kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Partiyanın pul depozitləri mötəbər maliyyə idarələrində yerləşdirilmişdir.

### 14.2 Bazar riski

Partiya bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

### 14.3 Faiz dərəcəsi riski

Partiyanın bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

## 15. HESABAT TARIXINDƏN SONRA BAŞ VERMIŞ HADISƏLƏR

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcək hadisələr baş verməmişdir.

Sədr müavini - icra katibi

________________ Əli Əhmədov

Baş mühasib

________________ Sədaqət Hacıyeva